# QARABAĞIN PALEOLİT DÜŞƏRGƏLƏRİNİN ARXEOLOJİ MƏDƏNİYYƏTLƏRİ

*əvvəli var*

## AŞEL Mədəniyyəti

Azıx mağarasının V təbəqəsində aparılan arxeoloji tədqiqatlar zamanı ibtidai insanların ilk dini təsəvvürlərinə aid zəngin arxeoloji materiallar aşkar olunmuşdur. Bu materiallar əsasında da ibtidai insanların ilk dini təsəvvürləri haqqında elmi məlumatlar əldə etmək olur. Xüsusilə, 1972-ci ildə düşərgənin V təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı mağaranın qaranlıq küncündə mağara ayılarının kəllələri və çənələri aşkar olunmuşdur. Bu tapıntı sahəsi mağaranın içərisində olduqca möcüzəli bir guşədə yerləşir. Bu hissədə mağaranın sağ divarında iki qaya son dərəcə qabarıq formada irəliyə uzanaraq orta hissəyə işıq düşməsinə mane olur və nəticədə bura zülmətə qərq olur. Bu sahədə qaya rəfi təbii surətdə əmələ gəlmişdir. Ona görə də bu rəfdə yuxarıda qeyd olunan mağara ayılarının kəllələri və çənələri qoyulmuşdur. Aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, mağara ayıları və çənələri bu sahəyə ibtidai insanlar tərəfindən qoyulmuşdur və bu da müəyyən məqsəd daşımışdır. Bu qədim Azıx sakinlərinin ilk dini görüşləri barədə məlumat verir və düşərgə sakinlərinin mağara ayılarının kəllələrinə sitayiş etdiklərini göstərir. Mağaranın bu sahəsi bir növ müqəddəs yer sayılmış və ona görə də aparılan elmi tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, ibtidai adamlarda ilk ibtidai dini görüşlər 350 min il bundan əvvəllərdən yəni, orta aşel mədəniyyəti dövründən başlanmışdır. Lakin bu görüşlər ilk ibtidai dini görüşlər olmuşdur.

Azıx mağara düşərgəsinin orta aşel dövrünə aid təbəqəsindən aşkar olunmuş mağara ayılarının içərisində bir ədədi daha çox diqqəti cəlb edir (şəkil 21). Bu ayı kəllələrinin birinin üzərində 8 əyri xətt çəkilmişdir. Xətlərin ayrı-ayrılıqda uzunluğu 15, 18, 20, 24, 30, 36, 45 və 47 mm-dir. Bu ölçülərdən müəyyən etmək olur ki, xətlərin uzunluğu və onların arasında qoyulmuş məsafələr bərabər deyildir. Aparılan elmi tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, kəllə üzərində olan xətlərin hamısı dişli daş alət vasitəsilə çəkilmişdir. Bu tapıntı tədqiqatçılar arasında böyük marağa səbəb olmuşdur. Tədqiqatçıların bir hissəsi xətlərin say bildirməsini, digərləri isə ilk ibtidai incəsənət nümunəsi olduğunu göstərir.

Azıx düşərgəsinin orta aşel təbəqəsindən qeydə alınmış ayı kəlləsi və xətlər qədim Azıx sakinlərinin ideoloji təsəvvürləri ilə bağlı olmuşdur. Bu tapıntı hələlik dünya paleolit düşərgələri arasında nadir tapıntı olsa da, buna bənzər tapıntı Almaniyanın Turingi ərazisində olan Bilsinsibendən də aşkar olunmuşdur.

Azıx mağara düşərgəsinin orta aşel təbəqəsindən aşkar olunmuş ocaq yerlərinin mühüm elmi əhəmiyyəti vardır. Azıxda aparılan arxeoloji qazıntılar zamanı ocaq yerlərinin aşkar olunması düşərgə sakinlərinin hələ qədim aşel mədəniyyəti zamanı odla tanış olub, ondan istifadə etmələrini göstərir.

Aparılan arxeoloji tədqiqatlar zamanı məlum olmuşdur ki, çoxtəbəqəli Azıx düşərgəsinin sakinləri torpaqda qazma üsulu ilə ocaqlar qurmuşlar. 1972-ci ildə Azıx düşərgəsinin orta aşel təbəqəsində aparılan arxeoloji tədqiqatlar zamanı bir neçə ocaq yeri aşkar olunmuşdur. Ocaqlardan biri 4m? sahəni əhatə edir. Maraqlıdır ki, ocağın ətrafı qaya daşları ilə əhatə olunmuşdur. Ocağın hər tərəfinə yandırılmış ağac külündən sədd çəkilmişdir. Ən maraqlı cəhət ocağın yanında əhəng daşlarından qurulmuş divar qalığının müəyyən olunmasıdır. Divar qalığının hündürlüyü 30 sm-dən bir qədər artıq olmuşdur. Maraqlıdır ki, divarın yanında bir ocaq yeri aşkar olunmuş sümük məmulatlarının müəyyən qismi odda yandırılmışdır. Bu aşel dövründə yaşayan mağara sakinlərinin ovlanmış heyvan ətlərini odda yandırdıqlarını və bişirdiklərini göstərir.

Ümumiyyətlə, aşel dövrü düşərgələrində ocaq və onun izləri (ağac və sümük kömürləri, kül və s.) tək-tək hallarda qeydə alınır. Azıx düşərgəsinin VI-V təbəqələrində aparılan tədqiqatlar zamanı zəngin ocaq qalıqlarının qeydə alınması mühüm elmi əhəmiyyət kəsb edir. Hələlik dünyanın bir neçə paleolit düşərgəsindən Azıxda olduğu kimi zəngin ocaq yeri aşkar olunmamışdır.

P.Y.Boriskovski aparılan arxeoloji qazıntılara əsasən qeyd edir ki, hələ aşel dövrünün əvvəllərində uzun müddət oturaq həyat tərzi keçirmiş insanların düşərgələri yaşayış məskənləri olmuşdur ki, burada həmişə ocaq qalanmış və ibtidai adamlar oddan istifadə etmişlər (Boriskovski, 1979).

Arxeologiya elmi od və ocağın tədqiq olunması sahəsində Azıx düşərgəsinin qədim və orta aşel mədəniyyətinə aid təbəqələrində aşkar olunmuş maddi mədəniyyət nümunələri dünya paleolit elmini yeni arxeoloji materiallarla zənginləşdirmişdir. Məhz bu maddi mədəniyyət nümunələri əsasında odun ibtidai insanlar tərəfindən hələ qədim aşel mədəniyyəti dövründə kəşf olunması müəyyən olunmuşdur (Hüseynov, 1985, Cəfərov, 2008).

Azıx mağara düşərgəsinin V təbəqəsində qeydə alınan ocaq yeri daha çox maraq doğurur. Bu ocaq Azıx mağarasında, işıq olduqca çətin düşən bir sahəsində aşkar olunmuşdur. Arxeoloji tədqiqatlar zamanı müəyyən olundu ki, ocaq ilk zamanlar ayrı-ayrı xırda gözlərdən ibarət olmuşdur. Sonralar həmin gözlər birləşmiş və mərkəzləşmiş şəkildə ümumi bir ocağa çevrilmişdir. Maraqlıdır ki, bu ocaq yeri ağac kömürün yığını ilə zəngin idi (Hüseynov, 1975). Kömür və kül yığını təmizləndikdən sonra hər iki kvadratda bir-birinin üstündə ayrı-ayrı dairə şəkilli ocaq yerlərinin izləri müəyyən olundu (Hüseynov, 1985).

Azıx düşərgəsinin qədim və orta aşel mədəniyyətinə aid təbəqələrdən ocaq yerlərinin aşkar olunması ibtidai insanların burada daimi yaşamasını göstərir (Cəfərov, 1994). Eyni zamanda qədim mağara sakinlərinin həyatında və təsərrüfatında ocağın mühüm yer tutduğunu elmi faktlarla sübut edir (Cəfərov, 2004, 2008).

Qafqazın aşel mədəniyyətinə aid düşərgələrində aparılan arxeoloji tədqiqatlar zamanı da zəngin maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Xüsusilə professor Lübinin Cənubi Osetiyadakı Kudaro mağarasında apardıqları arxeoloji tədqiqatlar zamanı aşel mədəniyyətinə aid zəngin maddi mədəniyyət qalıqları tapılmışdır. Kudaro I mağara düşərgəsində tapılmış əl çapacaqları xüsusi maraq doğurur. Düşərgədən tipoloji cəhətdən müxtəlif çapacaqlar tapılmışdır. Kudaro sakinlərinin ovçuluq təsərrüfatında əsas yeri mağara ayıları tutmuşdur. Bunu düşərgədən tapılmış heyvan sümükləri sübut edir. Maraqlıdır ki, burada ovlanmış heyvan sümüklərinin 95%-ni mağara ayılarının sümükləri təşkil edir. Kudaro mağarasının yaxınlığında yerləşən Soni düşərgəsində aparılan arxeoloji tədqiqatlar zamanı aşel dövrünə aid zəngin əmək alətləri və fauna qalıqları aşkar olunmuşdur (Lübin, 1977, 1984, 1988).

Yaxın Şərq və Avropa ölkələri ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı qədim və orta aşel mədəniyyətlərinə aid zəngin arxeoloji düşərgələr aşkar olunmuşdur. Xüsusilə, Fransanın Vallone, Terra-Amata, Araqo və Lazeret mağaralarında aparılan arxeoloji tədqiqatlar zamanı zəngin maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Fransanın Vallone qədim insan düşərgəsi Avropanın ən qədim paleolit düşərgəsi hesab olunur. Bu düşərgədən tapılan əmək alətlərinin yaşı milyon ilə bərabərdir. Hələlik Avropada bu tarixə malik olan ikinci bir abidə qeydə alınmamışdır. Düşərgədən daş məmulatı ilə yanaşı ovlanmış heyvan sümükləri də tapılmışdır.

Fransa ərazisində aşkar olunmuş ən maraqlı və zəngin abidələrdən biri də Terra-Amata düşərgəsidir. Düşərgə Fransanın cənub-şərqində olub Nitsa şəhəri ərazisində yerləşir. Burada arxeoloji tədqiqat işini professor Lümley aparmışdır. Tədqiqatlar zamanı düşərgədən aşel dövrünə aid çopperlər, əl çapacaqları və başqa alətlər tapılmışdır. Düşərgədən daş alətlərlə birlikdə ovlanmış heyvan sümükləri də tapılmışdır. Sümük məmulatı içərisində Merka kərgədanı, nəhəng maral, vəhşi öküz və başqa heyvanların sümükləri çoxluq təşkil edir.

Terra-Amata düşərgəsində qədim tikili yeri aşkar olunmuşdur. Professor A.Lümleyin fikrinə görə qədim tikili yerində ibtidai adamlar müvəqqəti yaşamışlar və bu düşərgədə əsasən alət hazırlamaqla məşğul olmuşdur. Bunu tikili yerindən aşkar olunmuş çoxlu istehsal tullantıları sübut edir. Terra-Amata düşərgəsində ən maraqlı tapıntılardan biri paleolit dövrü adamının ayaq izinin mədəni təbəqədə qeydə alınmasıdır. Onun ölçülərinə əsasən müəyyən edilmişdir ki, həmin dövrün adamının boyu 1,56 metr olmuşdur (Lümley, 1998).

Fransanın cənubunda yerləşən Kondel-Araqo mağaralarında aparılan arxeoloji tədqiqatlar zamanı aşel dövrünə aid zəngin əmək alətləri və fauna qalıqları tapılmışdır. Əmək alətləri içərisində əsas yeri çopperlər, əl çapacaqları, qaşov tipli alətlər və itiuclular təşkil edir. Bu düşərgələrdən aşkar edilmiş çopperlər klassik üsulda hazırlanmış və tipologiyasına əsasən qədim aşel dövrünə aid olunur. Düşərgələrdən eyni zamanda ovlanmış heyvan sümükləri də aşkar olunmuşdur. Bu qədim Kondel-Araqo sakinlərinin həyatında ovçuluğun əsas yer tutduğunu göstərir.

Kondel-Araqo mağaralarında tapılmış paleoantropoloji qalıqlar ona dünya şöhrəti qazandırmışdır. Araqo mağaralarından qədim insan çənələri və kəllələri tapılmışdır. Bu tapıntılar Avropanın ilk sakinlərinə aid olub, qədim aşel dövründə 600-450 min il bundan əvvəl yaşamış qədim Araqo adamlarının sümük qalıqlarıdır. Maraqlıdır ki, Araqodan tapılmış çənə Azıx düşərgəsinin aşel təbəqəsindən tapılmış azıxantrop çənəsi ilə oxşarlıq təşkil edir. Hər iki tapıntı yaş etibarı ilə bir-biri ilə müqayisə oluna bilər və qədim insanların antropoloji xüsusiyyətlərini öyrənmək üçün ən mühüm elmi tapıntılardan hesab olunur (Hüseynov, Hacıyev, 1970, Cəfərov, 1990, 1994, 2004, 2008) (şəkil 25, 35).

Avropa ölkələri ərazisində (Almaniya, Fransa, İspaniya, Macarıstan) aparılan arxeoloji tədqiqatlar zamanı qədim daş dövrünə aid zəngin maddi mədəniyyət qalıqları ilə birlikdə antropoloji tapıntılar aşkar olunmuşdur. Bu elmi materiallar əsasında qədim insanların həyat tərzini, alət hazırlama texnikasını, onların inkişaf xüsusiyyətlərini və o dövrün təbii coğrafi şəraitini öyrənmək üçün zəngin elmi materiallar əldə olunaraq aşel mədəniyyəti tədqiq olunmuşdur.

Beynəlxalq İNTAS-2000 proqramı çərçivəsində 2001-2005-ci illərdə aparılan elmi tədqiqatlar zamanı müasir Avropada yaşayan qədim sakinlərin bir milyon il bundan əvvəllərdən Cənubi Qafqazdan miqrasiya etmələri müəyyən olunmuşdur.

Son zamanlarda aparılan elmi tədqiqatlar zamanı Cənubi Azərbaycan ərazisində də aşel mədəniyyətinə aid maddi mədəniyyət nümunələri tapılmışdır.

Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 700 min il bundan əvvəl başlamış aşel mədəniyyəti 120-100 min il bundan qabaq sona çatmış və onu mustye mədəniyyəti əvəz etmişdir (Cəfərov, 2004, 2008).

Yuxarıda qeyd olunan Qarabağın Azıx və Tağlar paleolit düşərgələrindən tapılmış zəngin arxeoloji materiallar bəşəriyyətin maddi və mənəvi sərvəti olub, ilk əmək alətlərinin hazırlanmasından, ilk ibtidai tikililərin yaranmasından, odun kəşf edilməsindən və ulu sakinlərin uzun təkamül inkişaf yolu keçib formalaşmasından xəbər verir. Lakin təəssüf ki, bu dövrün tarixini, maddi mədəniyyət qalıqlarını saxtalaşdırmağa cəhd edən bəzi üzdəniraq "müəlliflər" də vardır.

Azıx düşərgəsinin II ən böyük salonunda nəhəng stalaqnat dirək əhəngli suyun qarışığından təbii yolla təxminən 2-3 milyon il bundan əvvəl əmələ gəlmişdir (şəkil 9). Bütün təbii yolla əmələ gəlmiş karst mağaralarında belə dirəklərə və ayrı-ayrı stalaqnat daşlara rast gəlmək olur. Azıx düşərgəsinin ayrı-ayrı salonlarında belə dirəklər çoxdur. Arxeologiya və geologiyaya dair ədəbiyyatlarda mağaraların əmələ gəlmə xüsusiyyətləri şərh olunur və orada stalaqnat dirəklərin formalaşmasının təbii yolları ətraflı izah olunur. Lakin bəzi "alimlər", Azıx qədim insan düşərgəsində təbii yolla əmələ gələn stalaqnat dirəyin yanlış olaraq qadın heykəli olduğunu qeyd edirlər. Şaqen Mıkırtçyan özünün "Dağlıq Qarabağın tarixi və memarlıq abidələri" adlı əsərində qeyd edir ki, guya Azıx mağarasında aşel dövrünə aid erməni qadınının heykəli var və onun hətta paltarı da müasir erməni qadınının paltarına bənzəyir (Yerevan, 1988). Bu heç bir elmi əsası olmayan cəfəngiyat fikir olmaqla bərabər tarixin əsassız olaraq saxtalaşdırılmasıdır. Belə bir fikir söyləməklə Şaqen Mıkırtçyan erməni xalqının tarixini aşel dövründə axtarmağa can atır (700-450 min il bundan əvvəl). Lakin, həqiqətdə Azıx qədim insan düşərgəsində qadına bənzər heykəl yoxdur və bu dirək təbii yolla əmələ gəlmiş stalaqnat dirəkdən ibarətdir. İkinci isə aşel dövründə heç bir yerdə müasir insanın əcdadı yaşamamışdır. Bu dövrdə ancaq pitikantrop, sinantrop tipli ibtidai adamlar yaşamış, heç bir xalq və millət həmin dövrdə olmamışdır.

***(Davamı var)***



***Əsədulla Cəfərov,*** ***AMEA Arxeologiya və Etnoqrafiya institutunun şöbə rəhbəri, t.e.d., professor.***
***01 fevral 2019-cu il.***
*Mob: (050) 358-91-55.*
asadulla.jafarov@gmail.com